NƏRİMAN SEYİDƏLİYEV

# Azərbaycan dilində işlənən alman mənşəli beynəlxalq sözlərin izahlı lüğəti





NƏRİMAN SEYİDƏLİYEV

# Azərbaycan dilində işlənən alman mənşəli beynəlxalq sözlərin izahlı lüğəti

B A K I – 2016

**Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur**

**Redaktor:** **Fəxrəddin Yadigar oğlu Veysəlli filologiya üzrə elmlər doktoru, professor**

**Rəyçilər:**
1. **İsmayıl Oruc oğlu Məmmədli filologiya üzrə elmlər doktoru, professor**
2. **Dilşad Şaban qızı Veysəlova filologiya üzrə fəlsəfə doktoru, dosent**

**Seyidəliyev Nəriman Fərman oğlu. Azərbaycan dilində işlənən alman mənşəli beynəlxalq sözlərin izahlı lüğəti. Bakı - 2016. 48 səh.**

Lüğətdə 700-dən artıq söz-termin və ifadə verilmişdir. Həmin sözlər (terminlər) yalnız Azərbaycan dilində deyil, internasional söz kimi dünyanın əksər dillərində işlədilir; bunun la yanaşı, bəziləri fonetik dəyişikliyə uğrayır. Şübhəsiz ki, lüğət hər bir oxucu üçün faydalıdır.

**Qrif**

# ÖN SÖZ

Məlumdur ki, dilin lüğət fondu açıq sistem sayılır. Dilin leksik sistemi həmişə inkişafda olmuş, inkişaf edir və inkişaf edəcəkdir. Hər hansı bir dilin zənginləşməsində, şübhəsiz ki, alınma söz və terminlərin rolu böyükdür. Zaman keçdikcə elm və texnika inkişaf etdikcə, ölkələrarası mədəni, iqtisadi, siyasi, ticari əlaqələr genişləndikcə yaranan sahə terminləri dilin lüğət fonduna keçir və onu zənginləşdirir. Hazırda dünya dilləri içərisində ingilis dili aparıcı rol oynasa da, bu dil ilə yanaşı fransız, alman, rus, ərəb və digər məşhur dillər heç də ingilis dilindən geri qalmır.

Qədim tarixi olan alman xalqı da Avropada öz dillərini qoruyub saxlamış, onun qayğısına qalmış və zənginləşdirmişdir. Alman dilində nəşr olunmuş müxtəlifsistemli lüğətlər bunun bariz nümunəsidir. Bu dil inkişaf etdikcə böyük nüfuz qazanmış, hətta müxtəlif elm sahələri üzrə yaranmış terminlər başqa dillərə də keçmişdir. Bu faktı tərtib olunub nəşr edilən hazırkı lüğət də sübut edir.

Beynəlxalq nüfuz qazanmış alman terminləri aşağıda göstərilmiş müxtəlif elm sahələrini əhatə edir:

Coğrafiya sahəsində: fiks-punkt, landşaft, nord, nord-ost, nord-vest, züd, züdost, züd-vest və s.

Dənizçilik sahəsində: falşkil, forşlaq, şlaq, yunga, bugel və s. Fizika sahəsində: hers, linza, maxe, oberton və s.

Texnika sahəsində: şaber, şaxta, şiber, şplint, deka, dizel, flanes, futer, mufta, sanqa, ventil və s.

Musiqi sahəsində: klavir, leytmotiv, kontrapunkt, tuş, qamma və s. Tibb sahəsində: bor, bormaşın, feldşer, rentgen, şpatel, trepper və s. Zoologiya sahəsində: finna, forel, pudel və s.

Poliqrafiya, mətbəə sahəsində: blent, fals, falsovka, forsatz, kolontitul, şmutstitul, şpon və s.

Hərbi sahədə: landştrum, komendatur, şantsev, ştabs-ofiser, ştabs- kapitan və s.

Tarix sahəsində: landver, yeger, yunker, hersoq, hofmarşal, hetman və s.

Yuxarıda göstərilən sahə terminologiyalarından başqa dilçilikdə, baytarlıqda, iqtisadiyyatda, botanikada, maliyyədə və sair sahələrdə də sözlər öz əksini tapmışdır.

Beynəlmiləl termin kimi bir çox söz vardır ki, onlar başqa dildən alman dilinə keçmiş və bu dil vasitəsi ilə yayılmışdır. Həmin terminlərin sayı 500-dən artıqdır. Məsələn: aberrasiya, abstraksiya, avtoritet, aqressiya, aqressor, akkumulyator, arqument, arxiv, blank, viza, gen, dialekt, diaqnoz, diametr, dinamika, instrument,

interval, kateqoriya, kvartal, linqvistika, lirika və s.

Qeyd edək ki, həmin sözlər lüğətdə verilməmişdir.

Lüğət hazırlanarkən həm alman, həm də Azərbaycan dilində mövcud müxtəliftipli sözlüklərdən istifadə olunmuşdur.

**Nəriman Seyidəliyev**
**filologiya üzrə elmlər doktoru**

## Lüğətin quruluşu

1. Lüğətdə sözlər əlifba sırası ilə verilmişdir.

2. Bütün baş sözlərdə onun almanca variantı da göstərilmişdir. Məsələn:

**ABZAS** [Absatz]
**ANŞLİF** [Anschliff]

3. Omonimlər ayrı-ayrı verilir və onların qarşısında rum rəqəmləri yazılır.

**MARKA I**
**MARKA II**
**MARKA III**

4. Sinonim sözlər *b a x* sözü ilə digərinə yönəldilir.

5. Baş sözün bir neçə mənası olduqda hər bir məna rəqəmlərlə ayrılır.

6. Baş sözdən derivat olunan (törəyən) terminlər □ [romb] işarəsi ilə göstərilir.

7. Bəzi sözlərin hansı termin sahəsinə aid olduğu onların qarşısında kursivlə qısa forması verilir. Məsələn:

**KOLONTİTUL** *mətb.*
**KERN** *məd.*

Kursivlə verilmiş ixtisar sözlərin açılışı bütöv halda "Şərti ixtisarlar"da göstərilmişdir.

8. Lüğətdə bəzi müştərək terminlər də verilmişdir: **QARANTİYA** *alm., fr.* **BALETMEYSTER** *fr., alm.*

9. Başqa dillərdən alman dilinə keçən və bu dil vasitəsilə yayılan terminlər lüğətdə verilməmişdir. Məsələn:

**avtoritet** əsli latınca **almanax** əsli ispanca **analogiya** əsli yunanca **blank** əsli fransızca və s .

**BLOKHAUS** [ Blockhaus ] – betondan, metaldan, ağacdan və s.-dən quraşdırılmış müdafiə binası (qurğusu); dairəvi pulemyotun idarə edilməsi üçün və artilleriya atəşi üçün düzəldilmiş tikili.

**BLOKPOST** [Blockpost – blockieren (mühasirəyə almaq) və Post (qarovulçu, gözətçi) sözlərindəndir] - yollarda, yaşayış məntəqələrinin girişində olan nəzarət məntəqəsi.

**BODMERYA** [ Bodmerei] - pul zayomu.

**BOR** [Bohr(er)] - diş həkimlərinin (təcrübə zamanı) işlətdikləri polad cihaz, qurğu.

**BORMAŞIN** [Bohrmaschine] – diş həkimlərinin işlətdikləri burğu maşını (cihazı).

**BORŞTANQ** [ Bohrstange] – bəndlə bərkidilmiş metalkəsən alət: xarrat və oyma dəzgahında dəlik açmaq üçün istifadə olunur.

**BRANDER** [Brander (yanma, alışma, yanğın) sözündəndir] -1) keçmişdə düşmən gəmilərini yandırmaq üçün yanacaq və partlayıcı maddələrlə yüklənmiş kiçik gəmi; 2) düşmənin sahilə yanaşma yolunu tutmaq üçün batırılan gəmi.

**BRANDMAUER** [Brandmauer, Brand (yanğın) və Mauer (divar) sözlərindəndir] - iki bina arasında yanğının qarşısını almaq üçün tikilən divar.

**BRANDMAYOR** [Brandmajor] - *köhn.* bütün şəhər yanğın komandasının rəisi, başçısı.

**BRANDMEYSTER** [Brandmeister] - *köhn.* yanğın komandasının rəisi, başçısı.

**BRİQADİR** [Briqadier ] – 1) istehsalat briqadasının başçısı, rəhbəri; 2) XVIII əsrdə Rusiyada polkovnik və general rütbələri arasındakı hərbi rütbə; 3) XVII-XVIII əsrlərdə Fransada bir neçə hərb növündə rütbə; 4) 1874-cü ilə qədər Almaniyada artilleriya briqadasının briqadiri:

□ briqadirlik, briqadir - mexanik.

**BRUDERŞAFT** [Bruderschaft - qardaşlıq] ; bruderschaft içmək- dostluq əlaməti olaraq qollarını bir-birinə keçirərək öz qədəhlərini şaqqıldadıb içmək.

**BRUSTVER** [Brustwehr hərfi sipər ] - 1) əsgərləri və topları düşmən atəşindən gizlətmək üçün səngərin üstündə düzəldilən torpaq sipər; 2) hərbi gəmilərdə zireh bənd, hasar.

**BUGEL** [Bügel - qövs] 1) dəmir bənd, halqa; 2) tramvayın, trolleybusun, elektrovozun cərəyan qəbul edən hissəsi; 3) *dəniz*. dor ağacında gəmi işləri sistemini bərkitmək üçün metal halqa.

**BUXALTERİYA** [Buchhalterei – Buch (kitab) və Halter (saxlayan) sözlərindəndir] – 1) hesabdarlıq və qeydiyyat işlərinin nəzəriyyəsi və praktikası; 2) idarə və müəssisənin mühasibat şöbəsi; 3) bu cür şöbənin işçiləri.

□ buxalter, buxalterlik

**BUXTA** [Bucht ] - hər hansı bir su hövzəsində (dənizdə, göldə və s.-də) körfəz.

**BUKS(A)** [Büchse] - dəmir yolunda: vaqon təkəri oxunun hərləndiyi çuqun, metal korobka (qutu).

**BUKSİR** [Bugsierer – bugsieren (yedəkləmək, yedəyə almaq )] – 1) yedək; 2) yedək ipi, kanat.

□ buksirə qoşmaq

**BUNA** [Buhne]- köndələninə düzəldilmiş damla (torpaq bənd) .

**BUND** [Bund]- Litvada, Polşada və Rusiyada ümumi yəhudi ittifaqı; 1897-ci ildə Rusiyanın qərb quberniyasında yaradılmış yəhudi menşevik, xırda burjua millətçi təşkilatı.

□ bundçu

**BUNDESBANK** [Bundesbank] - Almaniya Federativ Respublikasının mərkəzi emisiya bankının rəsmi adı .

**BUNDESQERİXT** [Bundesgericht] – Almaniya Federativ Respublikasında Federal məhkəmə.

**BUNDESRAT** [Bundesrat] – AFR-də torpaq nümayəndəliyinin orqanı.

**BUNDESTAQ** [Bundestaq] - AFR-də ən ali nümayəndələr orqanı (palatası); parlament.

**BUNDESVER** [Bundeswehr] - AFR-in keçmiş silahlı qüvvələri.

**BURQQRAF** [Burggraf] - orta əsr Almaniyasında, inzibati

yerlərdə, məhkəmə və hərbi hakimiyyətdə olan vəzifəli şəxs; şəhər valisi.

**BURQOMİSTER** [Bürgemeister ] - 1) dövlət hakimiyyətinin yaxud vaxtilə Almaniya Demoktatik Respublikasının, həmçinin bir çox ölkələrin şəhər orqanlarında ən yüksək vəzifəli şəxs; 2) Rusiyada birinci Pyotrın vaxtında bələdiyyə rəisi.

**BUTERBROD** [Butterbrot (yağla çörək) ] - yağ, kolbasa, pendir və s. ilə düzəldilmiş yaxmac, çörək parçası.

□ buterbrodxana

**BÜKS** [Büchse-banka] - kip şüşə qapaqlı kiçik stəkanlar.

**BÜRGEL** [Bürgel) - 1) orta əsrlərdə Qərbi Avropa ölkələrində şəhərli; 2) *köhn*. şəhərli, şəhər sakini (Almaniyada və bir neçə ölkədə; 3) *məc*. meşşan.

## D

**DEKA** [Decke] – 1) simli musiqi alətində üst və alt taxtalar; 2) taxıldöyən kombaynın (maşının) silindrinin üst, yaxud alt ötürücüsünün hissəsi; 3) qayığın burun və arxa hissəsində onu sudan qoruyan qapaq.

**DEMANTOİD** [Demant almaz] – qranat (Süleymandaşı) parlaq-yaşıl andradita qrupundan olan mineral; "Ural-xrizolit" adı ilə tanınan qiymətli şəffaf daş.

**DEMPFER** [Dämpfer sözündən – səsudan]- müxtəlif alət və cihazlarda əmələ gələn mexaniki rəqsi zəiflətmək üçün qurğu; bu qurğudan texnikada və bir sıra musiqi alətlərində də istifadə edilir.

□ dempferləmə, dempferləmək.

**DİZEL** [alman ixtiraçısı və mühəndisi Dizelin (Diesel) adından] - 1) maye yanacaqla işləyən daxili yanacaqlı mühərrik; 2) dizel mühərriklə

işləyən avtobus. Disel sözündən Azərbaycan dilində bir qrup söz-termin də işlədilir. Məsələn: dizel aqreqat, dizelçi dizel-elektrik, dizel- elektrovoz, dizel-generator, dizel-qatar, dizelqayırma, dizelli,

dizel- motorlu, dizelqayıran.

**DOMKRAT** [Daumkraft - Daumen (barmaq) və Kraft (güc) sözlərindəndir] - ağır şeyləri qaldırmaq üçün istifadə olunan mexanizm. **DRATHAR** [Draht (məftil) və Haar (tük) sözlərindəndir] - seyrək, həm də gödək və cod tükü olan alman iti.

**DREL** [Drell] - pnevmatik, yaxud elektrik ötürücüsü ilə işləyən deşici maşın; burğu.

**DREZİN** [alman ixtiraçısı Drezin (Drais) adından] - dəmir yolunda: rels üstündə motor və ya əllə hərəkətə gətirilən dördçarxlı araba və ya kiçik platforma.

**DROSSEL** [Drossel] - 1) *elek*. mis məftildən düzəldilən maşın; 2) *tex*. mayenin, qazın, buxarın təzyiqini və işlənməsini nizama salmaq üçün qurğu.

□ drosellənmə

**DRUZ** [Drize] – *geol*. kristal layı, qrupu.

**DUNST** [Dinst (tüştü, buxar)]- 1) kalibrin (silah növü) ən xırda şariki; 2) yarma və unun üyüdülməsindən çıxan məhsul.

**DURXŞLAQ** [Durchschlaq - “durchschlagen” süzmək, süzgəcdən keçirmək sözlərindəndir] – aşsüzən.

**DUSA** [Düse] – *köhn*. maye, yaxud qaz axınının yayılması üçün ucluq.

## E

**EFES** [Gefas ] - 1) idmanda və ya döyüşlərdə soyuq silahda tutacaq, dəstə, sap; 2) pivə adı .

**EKSERSİRQANS** [Exerzierhaus ] - *köhn*. əsgərlərin nizami təhsil aldığı bina.

**ENDŞPİL** [Ende (son, axır) və Spiel (oyun)] - şahmatda: şahmat oyununda son mərhələ.

**ERKER** [Erker] - *memar*. ev divarlarında, pəncərələri olan yarımdairə şəklində çıxıntı.

**ERTSHERSOQ** [Erzherzog] - Avstriya prinslərinin titulu.

## F

**FAKELTSUQ** [Fackelzug] - *köhn.* məşəllərlə nümayiş, məşəllərlə gəzinti.

**FALS** [Falz] – 1) tikiş yeri, bir-birinə bitişdirilmiş nazik dəmir təbəqəsinin bitişdiyi yer; 2) *mətb.* çap vərəqinin bükümü; 3) taxtada və ya daşda açılan düzbucaqlı oyuq.

**FALSOVKA** [Falzen] - *poliqr.* qatlama, bükmə (çap olunmuş vərəqələrin və ya qəzetin müəyyən qayda ilə qatlanması, bükülməsi).

**FALŞ** [ falsch – səhv, saxta] - əsası olmayan bir şey, yalan, saxta.

**FALŞBORT** [ Falschbord] - *dəniz.* gəmidə göyərtə cağı.

**FALŞKİL** [Falschkiel] - *dəniz.* daşa dəyərkən və ya suya oturarkən gəmini zədələnməkdən mühafizə edən taxtadan və ya dəmirdən ibarət qoruyucu (tir).

**FAUSTPATRON** [Faustpatrone] - əl ilə atılan reaktiv silah.

**FELDFEBEL** [Feldwebel] - *köhn.* çar ordusunda və bəzi xarici ölkə ordularında rota komandiri köməkçisi.

□ feldfebellik

**FELDMARŞAL** [Feldmarschall] – 1917-ci il inqilabından əvvəl rus ordusunda və bəzi xarici ordularda yüksək hərbi rütbə,

□ feldmarşallıq

**FELDŞER** [Feldscher] - *tib.* orta tibb təhsili olan həkim köməkçisi.

□ feldşer-laborant, feldşerlik, feldşer- mama

**FELDYEGER** [Feldjäger] – hərbi ya hökumət kuryeri (cox vacib, gizli və s. kağızları aparıb müəyyən yerə çatdıran adam).

□ feldyegerlik

**FEN** [Föhn]- dərəyə dağ siklonu ilə əsən isti və ya quru külək.

**FEYERVERK** [Feuerwerk] - rəngli məşəl (fişəng); atəşbazlıq, fişəngbazlıq (bayramlarda və s.- də havaya atılır).

**FEYERVERKER** [Feuerwerker] - *köhn.* çar Rusiyasında: kiçik topçu zabiti.

**FİKS-PUNKT** [ Fixpunkt ] – coğrafi fiqurun hər hansı bir nöqtəsi.

**FİLİSTER** [Philister]- ictimai görüş dairəsi dar olan riyakar

mahiyyətli adam; meşşan.

**FİNNA** [Finne] - *zool*. qabarcıqlı qurd; bəzi yastı qurdların sürfəsi; qovuq. Finnanın 4 tipi fərqləndirilir: 1) sistiserk – qovcuğa qayıdan birbaşlı fnna; 2) senur – çoxbaşlı fnna; 3) exinokok; 4) sistiserkokk.

**FİRN** [Firn] - buzluqların üstündə olan bərkimiş iridənəli qar.

**FLANES** [Flansch] - *tex*. dəmir boruları bir-birinə birləşdirmək üçün uclarında olan yastı dairə.

**FLEKSATON** [Flexaton] - zərbli musiqi aləti.

**FLİGEL** (fügel) [Flügel-qanad] - 1) əsas binanın yanında tikilmiş əlavə tikili ev; 2) böyük bir binanın həyətində tikilmiş ev.

**FLİNT** (qlas) [Flintglas] - optik şüşə növü.

**FLUS I** [Flus] - xəstə diş ətinin iltihabı.

**FLUS II** - aşqar (domna sobalarında fliz ilə yanacaq arasına tökülən maddələr).

**FLUTBET** [Flutbett, Flut (axın, sel, dalğalanma) və Bett (çarpayı, yataq sözlərindəndir.]- açıq su axınının süni olaraq gücləndirilməsi.

**FLYAQ** [Flasche – butulka, şüşə ]- 1) çiyindən asılan su qabı ; 2) maye daşımaq üçün böyük qab: məsələn: süd fyaqı).

**FOKUS** [Hokuspokus ] – 1) mahir fokusçu; 2) hiylə, kələk, fırıldaq; 3) *məc*. naz, qəmzə, işvə, hoqqa, şıltaq.

□ fokusçu, fokusçuluq, fokuslamaq, fokuslandırıcı, fokuslaşdırma

**FORDEK** [Fordeck] - miniyin açılıb-yığılan üstü.

**FOREL** [Forelle ] – *zool*. çayda və dənizdə yaşayan balıq.

□ forelyetişdirmə, forelçi, forelçilik.

**FOREYTOR** [Vorreiter] - dal-dala atlar qoşulmuş karetdə : qabaqdakı atların birinin üstünə minən sürücü.

**FORPOST** [Vorposten] – 1) avanpost mənasında ; 2) ön mövqe, ön istehkam (hərbdə); 3) *məc*. dayaq.

**FORŞLAQ** [Vorshlag, vor (irəli, qarşı) və Schlaq (zərbə) sözlərindəndir]- 1) *mus*. bir və ya bir neçə notdan ibarət melodik bəzək: 2) *dəniz*.qabaq

yelkəni qaldıran buraz, kəndir.

**FORŞMAK** [Vor(ge) schmack (əvvəlcədənyemə)] - döyülmüş ətdən və siyənək balığı ilə kartofdan hazırlanmış yemək.

**FORZATS** [Vorsatz] - mətb. kitabın blokunu cildinin üstü ilə birləşdirən vərəq.

**FRAXT** [Fracht] - 1) su yolları ilə daşınan yükün yol xərci; 2) kirayə edilmiş gəmi ilə daşınan yük, baqaj.

**FRAU** [Frau] - xanım.

**FRAUNHOFER** xətti [alman fiziki Joseph Fraunhoferin adından] - günəşin spektrində qaranlıq xətt.

**FRİKADELKA** [Frikadelle] - ətdən və yaxud balıq farşından hazırlanmış küftəyə oxşar xörək.

**FROYLAYN** [Fräulein]- almanlarda və bir çox Qərbi Avropa xalqlarında cavan qıza və qarımış ərsiz qadınlara müraciət formasında işlənən söz .

**FROYLİNA** (Hof) fräulein] – qızlar üçün və çar, kral, şahzadə və b. bu kimi aristokrat arvadlarına xidmət edən qulluqçu.

**FUXTEL** [Fuchte] - *köhn*. 1) kəsər silahın yastı tərəfi; 2) qılıncla yastısına vurma.

**FUKS** [Fuchs (tülkü)] – bilyard oyununda təsadüfi olaraq vurulan şar.

**FUKSİN** [Fuchsin] - qırmızı rəngli anilin boyası (bitki adından).

**FUKSİYA** [ Fuchrie] - Mərkəzi və Cənubi Amerikada yayılmış bitki növü; küpəçiçəyi.

**FURA** [ Fuhre ] - yük üçün uzunsov araba.

**FURMA** [Form] - *tex*. domna peçlərinə sıxılmış hava buraxmaq üçün boru.

**FUTER** [Futter] - *tex*. futerləmə, futerlənmə (metallurji peçlərin, buxar qazanlarının, dəmir bacaların və s. içərisini odadavamlı materialla örtmə).

□ futerçi, futerləmə, futerlənmə, futerlənmiş, futerləmək.

**FUTLYAR** [Futteral] - zədələnməkdən, xarab olmaqdan qorumaq üçün içinə şey qoyulan qutu, yeşik; məsələn: eynək üçün, saat üçün futlyar.

**FÜRER** [Führer- rəhbər] - faşist Almaniyasında Adolf Hitlerə verilən ad.

## G

**GESTAPO** [Gestopo (Geheime Staatspolizei) - Hitler Almaniyasında faşizm düşmənlərinə qarşı ən vəhşi üsullar tətbiq edən gizli siyasi polis.

□ gestapoçu

**GETİT** [alman şairi Götenin şərəfinə] - *miner*. iynəvarı dəmir filizi-qırmızıqonur rəngli mineral, hidrat dəmir oksidi. Tibbi anatomiyada Götenin adı ilə bağlı, həmçinin "Göte sümüyü" termini də işlənir.

**GİLDİYA** [Gilde] - 1) *tar*. orta əsrlərdə Qərbi Avropada tacirlər və ya sənətkarlar ittifaqı: 2) *tar*. tacirlik dərəcəsi; 3) müasir dövr Rusiyasında ümumi ixtisaslı insanların ittifaqı, təbəqəsi.

## H

**HANSVURST** [Hanswurst hərfi Hans - kolbasa] 1) XVI-XVIII əsrlərdə alman xalq teatrında təlxək, oyunbaz; 2) alman kukla tetrında personaj.

**HANTEL** [Hantel] - gödək əlcəklə bir-birinə birləşdirimiş iki çuqun şardan ibarət gimnastika alətləri.

**HART** [Hartblei hərfi bərk qurğuşun] - 1) mətbuat şrifti hazırlamaq üçün qurğuşun ərintisi; yığım və stereotip; 2) işlənmiş və ya köhnəlmiş şrift.

**HAUBİTSA** [Haubitze] - ğödəklüləli ağır artilleriya topu.

**HAUPTMAN** [Hauptman-rəis] 1) – XVI-XVIII əsrlərdə Polşada və Litvada bütün silahlı qüvvələrə (qoşunlara) rəhbərlik edən sərkərdə; 2) XVI- XVIII əsrlərdə Ukraynada kazan qoşunlarının başçısı .

**HAUPTVAXT** [Hauptwache - baş qarovul (axaik hərbi söz] - 1) hərbi qulluqçular ücün həbsxana; 2) xüsusi qarovulxana.

**HERS** [alman fiziki Henrix Hersin adından] - fizikada rəqs tezliyinin ölçü vahidi (H).

**HERSOQ** [Herzog] - 1) qədim almanlarda seçilmiş hərbi rəhbər;

2) Qərbi Avropada yüksək rütbəli zadəgan, knyaz titulu; 3) knyaz titulu olan adam; 4) orta əsrlərdə iri feodal.

□ hersoqluq.

**HOFMARŞAL** [Hofmarschall] - orta əsr Almaniyasında monarx rejimi; 1917-ci ilə qədər Çar Rusiyasında saray naziri.

**HOFMEYSTER** [Hofmeister] - orta əsr Almaniyasında saray qulluqçusu: Çar Rusiyasında xəzinəyə, dəftərxanaya rəhbərlik edən yüksək rütbəli məmur.

**HORN** [Horn - buynuz] - 1) nəfəsli musqi aləti ; siqnal borusu, şeypur);

2) *dəniz*. havanın dumanlı vaxtı gəmidə siqnal cihazı.

**HORST** [Horst] – *geol*. yer qabığının hissəsi.

**HUFA** [Hufe, Hube]- 1) orta əsr Almaniyasında kəndlilərin torpaq payı;

2) Almaniyada qəbul olunmuş 30 akr həcmində torpaq ölçü vahidi.

**HÜLSE** [Hülse] - 1) patronun barıt doldurulmuş hissəsi; 2) müştüklü papiros kağızı.

## X

**XİMİKALİN, XİMİKAT** [Chemikalien] - *kim.* kimyəvi preparatlar, kimyəvi məmulatlar.

**XORMEYSTER** [chor - yun.; Meister *alm*.] - xor dəstəsinin rəhbəri drijoru.

□ xormeysterlik

## İ

**İNDEMNİTET** [İndemnität] - 1) bir neçə ölkələrdə azad çıxış və parlamentdə səsvermə; 2) zərərin ödənilməsi, kompensasiya (əsasən beynəlxalq hüquqda) .

**İNDOSSANT** [İndossant] – çekin, vekselin və digər qiymətli kağızların arxa tərəfində həmin sənədin verilməsini icra edən şəxsin imzası.

**İNDOSSAT** [İndossat ] - indossantın verilmə imzası ilə xeyrinə çekin, vekselin və digər qiymətli kağızın köçürüldüyü şəxs.

## K

**KAFEL** [Kachel] - kaşı: əsasən divarın bayır səthinə vurulan naxışlı çini.

□ kafelçi, kafelçilik, kafelli, kafelsiz, kafeldüzən.

**KAMERDİNER** [Kammerdiener hərfi ortaq xidmətçisi] - *tar*. keçmişdə burjuadvoryanlarda ağaların xüsusi xidmətçiləri.

**KAMER-FREYLİNA** - [Kammerfräulein] - çar Rusiyasında əyan qızlarına verilən və onların sarayda qəbul olunmalarına hüquq verən xüsusi ad.

**KAMERHER** [Kamerherr] - *tar*. Qərbi Avropa dövlətlərində və çar Rusiyasında saray xidmətçilərinə verilən ad.

**KAMER-KOLLEGİYA** [Kammer-kollegium] - *tar*. müxtəlif vergi işlərinə baxan dövlət idarəsi.

**KAMER-LAKEY** – burjua-dvoryan məişətində baş saray nökəri.

**KAMERTON** [Kammerton] – 1) səsin qəbul olunmuş normal yüksəkliyi;

2) çalğı alətlərini kökləmək üçün səsindən istifadə edilən polad alət.

**KAMER-YUNKER** [Kammerjunker] - *tar*. İnqilabdan əvvəl (1917) Rusiyada kamerherdən kiçik saray rütbəsi.

**KAMVOL** [Kammvolle – daranmış yun] - 1) zərif daranmış yun; 2) belə yundan parça hazırlayan adam.

□ **KANİFAS** [Kanevas] – zolaqlı yüngül pambıq parça; yelkən bezi.

**KANSLER** [Kanzler] - 1) Avropanın bəzi dövlətlərində kral dəftərxanasında rəis; möhür və s. nəzarətçisi; 2) 1871-1945-ci illərdə Almaniyada reyxskansler (hökumət başçısı); 3) İngiltərədə lordlar palatasının sədri və maliyyə naziri; 4) Çar Rusiyasında ali mülki rütbə; 5) hazırda AFR-də hökumət başçısı.

**KANT** [Kante] – 1) ensiz rəngli qaytan; paltarda haşiyə, köbə şəkil çərçivəsində haşiyələnmiş zolaq, şırım; 2) kitaba yapışdırılmış kant, lent.

kantlı, kantsız.

**KAPEL** [Kapelle] – sümük külündən, yaxud maqnezitdən və başqa

materialdan preslənmiş məsaməli kasacıq; içərisində qızıl gümüş və s. material əridilmiş qab.

**KAPELDİNER** [Kapelldiener] – *köhn*. teatrlarda yaxud konsert zalında bilet yoxlayan və s. təmizliyə baxan işçi, nəzarətçi.

**KAPELMEYSTER** [Kapellmeyster]- vokal yaxud instrumental kapella drijoru.

**KAPSEL** [Kapsel ] - odadavamlı qutu.

**KARST** [Karst – balkanda məşhur bir yaylanın adından] - relyefin spesifik formaları.

□ karstşünaslıq

**KEQEL** [Keqel] - *mətb.* mətbuat hərflərinin ölçüsü.

**KEQELBAN** [Keqelbahn] - 1) keql düzmək və şarları diyirlətmək üçün meydança; 2) keql oyunu üçün xüsusi yer.

**KEQL** [Keqel]- ağac çəlikləri şarla vurub-yıxma oyunu.

**KELMA** [Kelle ] - malakeş aləti; bənna üçün əl aləti.

**KELNER** [Kellner] - yeməkxanada xörəkpaylayan (gətirən) xidmətçi.

**KERN** [Kern] - *məd.* mədəndən çıxarılan lüləşəkilli süxur nümunəsi

**KERNER** [Kerner] - 1) detalları nişanlamaq üçün alət; 2) bu alətlə detallar üzərində salınan nöqtələr.

**KERVEL** [Kervel] - *bot*. çətirlilər fəsiləsindən bitki.

**KİRKA** [Kirche] - Lüteran kilsəsi; lüteran məbədi (dini marasimlər keçirilən yer).

**KİTEL** [Kittel] - hərbi formalı gödəkçə (pencək).

□ kitelli, kitelsiz.

**KLAFTER** [Klaffter - sajın] - Avstriya və Macarıstanda milli uzunluq ölçüsü: 1 k= 6 futam = 1,896 m.

**KLAPAN** [Klap] - qapaq (qoruyucu qapaq, nasos qapağı və s.)

**KLAVİR** [Klavier] – 1) mus. fortepianonun köhnə adlarından biri; piano;

2) b a x klaviraussuq.

**KLAVİRAUSSUQ** - [Klavierauszug] - orkestr üçün yazılmış musiqi əsərinin royal üçün uyğunlaşdırılması; klavir.

**KLEYSTER** [Kleister] - kraxmaldan yaxud undan hazırlanmış yapışqan.

**KLİNKER** [Klinker] - xüsusi gildən hazırlanmış kərpic formasında olan yüksək möhkəmliyə malik odadavamlı süni (qeyri- təbii) daş.

**KLOPFER** [Klopfer, “klopfen” (“taqqıldatmaq” feilindəndir) – sadə teleqraf aparatı.

**KLUPP** [Kluppe] - *tex*. oxlarda yaxud borularda əl ilə kəsici yivlər üçün alət.

**KLYAKSA** [Klecks - klecken (ləkələndirmək, çirkləndirmək) feilindəndir] - kağızda mürəkkəb ləkəsi.

**KNEXT** [Knecht] - Almaniyada və Avstriyada muzdur, atabaxan.

**KNİKSEN** [Kniksen] - burjua zadəgan məişətində əyilərək salamvermə üsulu; reverans.

**KOBALT** [Kobald - dağ havası] -1) *kim*. maqnitləşmə qabiliyyəti olan ağ-gümüşü metal; kimyəvi element, Co. (Cobaltumm) simvolu; 2) tünd göy rəngli boyaq.

□ kobaltlı, kobaltin.

**KOKS** [Koks] - hava daxil olmadan 950- 1050 C. temperaturda daş kömür və ya torfdan alınan bərk yanacaq.

□ koks-domna, koks-kimya, kokslama, kokslaşdırılmaq, kokslaşdırma, kokslaşdırmaq, kokslaşdırılmış, kokslaşma, kokslaşmaq, kokslaşmış, kokslaşan.

**KOLBA** [Kolben] - kimya təcrübələrində işlədilən dar uzunboğazlı, adətən girdə və ya konusvarı şüşə qab.

□ kolbacıq

**KOLONSİFR** [Kolumnenziffer] - *mətb*. kitabda, jurnalda və s.-nin yuxarı yaxud aşağı hissəsində səhifə nömrəsi.

**KOLONTİTUL** [Kolumnentitel] - *mətb*. səhifə başlığı.

**KOLRABİ** [Kohlrabi] - gövdəsi yoğun ətli ikiillik tərəvəz bitkisi olan kələm növü; ondan yemək hazırlanır.

**KOMENDATUR** [Kommendatur] - hərbi komendantın olduğu bina, komendant idarəsi; komendantlıq, komendant vəzifəsi.

**KONTRAPUNKT** [Kontrapunkt] - 1) mus. çoxsəslilik, polifoniya;

2) vəhdət təşkil edən bir neçə müstəqil melodiya; 3) melodiya; müşayiətedən əsas melodik səs; 4) səsin eyni zamanda səslənməsi haqqında nəzəriyyə.

**KONFERENS-ZAL** [Konferenzsaal] - təntənəli keçirilən iclaslar zalı. **KONSERTMEYSTER** [Konzertmeyster] - 1) orkestrdə çalğıçılar dəstəsinin rəhbəri; 2) partiyalarını öyrənməkdə aktyora kömək edən
pianist-akkompaniator.

**KOPİR** ["Kopierschablone" sözündən] - kopiyalanmış dəzgah detalı, hərəkəti ötürən alət.

**KORN** [Korn- dən] - 1) manatda təmiz nəcib metalın çəkisi; 2) litoqrafiyada daşin dənəvər kələ-kötür (nahamar) səthi, çapın ofset üsulda metal lövhə və yaxud xüsusi kağız (bu da kornpapir adlanır).

**KORNPAPİR** [Kornpapier, "Korn" - dən və "Papier" - kağız sözlərindəndir] - litoqrafiyada: dənəvər üzlə tikilərək xüsusi yapışdırılmış kağız.

**KORUND** [Korund] - çox bərk mineral (qatışıq metal, titan xromla birlikdə gil-torpaqdan (alüminium-oksiddən ) hazırlanır).

**KRAFTSELLÜLOZ** ["Kraft - güc] - uzun telləri olan zəif bişirilmiş ağac sellülozu.

**KRAN** [Kran] - ağırlıq qaldırmaq üçün istifadə olunan mexanizm .

□ krançı, krançılıq, kranaltı, kranblok, kran-ekskavator, kranqayırma, kransazlama, kranlı, kransız, kran-ştabelyator, gəmi-kran.

**KRENDEL** [Krendel] - səkkiz rəqəmi formasında bulka növü.

**KREYTSER** [Kreuzer] - XIX əsrin sonuna qədər Almaniyada, Avstriya- Macarıstanda və Qərbi Avropanın bəzi ölkələrində işlənmiş qədim xırda pul.

**KREYTSKOPF** [Kreuzkopf] - krivoşip- sürüngəc mexanizmində detal.

**KREYTSMEYSEL** [Kreuzmeiβel] - metalda qanov yonmaq üçün nazik ülgüclü zubl (qələm) .

**KRESS** [Kresse] - coxillik ot bitkisi.

**KRESS- SALAT** - birillik tərəvəz bitkisi; vəzəri.

**KRON**(lar) [Krongelb] - sarı, narıncı və qırmızı rəngin piqmentlərinin ümumi adı.

**KRONQLAS** [Kronglas]- *tex.* optik cihazlar üçün xüsusi cihaz.

**KRONPRİNTS** [Kronprinz] - 1917-ci ilə qədər Almaniya və Avstriya-Macarıstan monarxiya dövlətlərində titul; vəliəhd.

**KRONŞTEYN** [Kronstein] – divara bərkidilmiş altlıq, dayaq, dirsək, sütun.

**KRONTSİRKUL** [Kronzirkel] - kiçik dairələr çəkmək üçün pərgar.

**KRONVERK** [Kronwerk] - köhnə qalalarda mühafizə tikilişi.

**KURFÜRST** [Kurfürst] - feodal Almaniyada: imperator seçmək hüququna malik olan nüfuzlu knyaz; "Müqəddəs Roma İmperiyasında knyaz: imperator seçkisində iştiraketmə hüququ var idi.

**KURTSHAR** [Kurzhaar, - "kurz" (qısa, gödək) və "Haar" (saç, tük) sözlərindən] - müxtəlifrəngli codtüklü alman it cinsi, tula.

**KVARS** [Kvarz] - *miner.* silisium-oksidi.

□ kvarslı.

**KVARSİT** – *miner.* bir-birinə sıx bitişmiş kvars (bax) dənələrindən ibarət süxur.

**KVARTİRMEYSTER** [Quartiermeister] - 1) keçmişdə qoşunu ərzaqla təchiz edən və onu mənzillərə yerləşdirən hərbi xidmətçi; 2) çar donanmasında kiçik unter-zabit; 3) orduda stabil əməliyyat şöbəsini idarə edən şəxs, general).

**KVARTİRYER** [Quartierherr] - hərəkət zamanı qoşun üçün mənzil hazırlamaqdan ötrü qabağa göndərilən hərbi qulluqçu.

## Q

**QARANTİYA** [Garantie *alm.*, *fr.*] – 1) zəmanət ; 2) təminat.

**QASTARBAYTER** [Gastarbeiter – Gast (qonaq) və Arbeiter (fəhlə, işçi) sözlərindəndir] - Almaniyada və bir sıra ölkələrdə işçi-immiqrant.

**QASTROL** [Gastrolle – Gast (qonaq) və Rolle (rol) sözlərindəndir]

- başqa yerdən (ölkədən, şəhərdən və s.) gəlmiş artistlərin yaxud teatrın, sirkin tamaşası.

□ qastrolçu, qastrolçuluq

**QASTROLYOR** - qastrolda ( b a x qastrol) iştirak edən artist, aktyor.

**QAULAYTER** [Gauleiter- hərfi gau vilayət mərkəzi] - Hitler Almaniysında vilayət faşist təşkilatının rəhbəri.

**QRAF** [Graf] - *tar*. yüksək zadəgan titulu .

□ qraflıq

**QREYFER** [Greifer - greifen (qaldırmaq) sözündəndir] - ağırlıqqaldıran maşınlarda təknə, çalov.

□ qreyferli

**QROSMEYSTER** [Grossmeister – hərfi böyük usta] - şahmat ustalarına verilən yüksək ad.

□ qrosmeyterlik

## L

**LAFET** [Lafette] – 1) topu bərkitmək üçün xüsusi hərbi qurğu, top qundaği; 2) yaxın yerlərə yük daşımaq üçün istifadə edilən xüsusi maşın.

□ lafetçi, lafetli

**LAMBERT** [alman alimi İ.Q. Lambertin adından) – parlaqlıq vahidi: 1 l. = $3{,}193.10^3$.

**LANDQRAF** [Landgraf] - orta əsrlərdə Almaniyada bəzi knyazların titulu.

**LANDSKNEXT** [Landsknecht] - 1) XV-XVII əsrlərdə Qərbi Avropada muzdla tutulan əsgər, muzdlu əsgərlərdən ibarət ilk ordu Almaniyada yaranmışdır; 2) ümumiyyətlə, muzdlu əsgər.

**LANDSVER** [Landstwehr ] - 1) *tar*. nizami qoşuna kömək etmək üçün könüllü surətdə düzəldilən yığma qoşun; ilk dəfə Napoleonla mübarizə zamanı Prussiya dövlətində düzəldilmişdi; 2) keçmişdə Avstriya və Almaniyada müharibə vaxtı ehtiyac ordusunu təşkil edə bilən hərbi təlim görmüş adamlar.

**LANDŞAFT** [Landschaft] - 1) *coğr.* Yer səthinin ümumi görünüşü; 2) təbiəti təsvir edən gözəl mənzərə şəkli (peyzaj); 3) təbii sərhədlərlə (su, dağ, relyef, bitki, heyvanat aləmi və s. ) coğrafi landşaft .

**LANDŞTRUM** [Landstrum] - 1) *hərbi.* ən zəruri ehtiyac zamanı çağırılan hərbi qüvvələr kateqoriyası, ilk dəfə 1809-cu ildə İsveçrədə, sonra isə Prussiya, Almaniya və Avstriyada təşkil olunmuşdu; 2) Almaniyada 1945-ci ilə qədər yaşlı adamlardan ibarət hərbi mükəlləfiyyət kateqoriyası, həm də kömək məqsədi ilə düzəldilmiş hərbi hissə.

**LANDTAQ** [Landtaq, "Land (ölkə, yer, torpaq) və "Tag" (yığıncağ) sözlərindən]- 1) Avstriyanın bəzi əyalətlərində nümayəndəli məclis, orta əsrlərdə feodal alman knyazları nümayəndələrinin qurultayı; 3) Avstriya və Almaniyada ayrı-ayrı vilayətlərin parlamentlərinə verilən ad.

**LANQHAR** [lang- uzun və Haar-saç sözlərindəndir] -uzunyunlu, qəhvəyi və boz rəngli alman it cinsi.

**LANQOBARD**(lar) [Langobarden – hərfi uzunsaqqallılar] - german tayfalarından biri.

**LAST** [Last -yük] 1) - 1) gəmidə 2 tona bərabər yük ölçüsü; 2) 40 kubfuta bərabər yonulmamış ağac ölçüsü; 3) gəmi çanağının üzünə vurulan taxta.

□ lastik.

**LATSKAN** [Lätzchen] - pencəkdə, paltoda və s.- də yaxa.

**LEDERİN** [Leder- dəri] - kitab cildləmək üçün parça, süni dəri.

**LEKAJ** [Leckage] - malın çəkisində yaxud həcmində olan itki.

**LEN** [Lehn] - orta əsrlərdə Qərbi Avropada (əsasən Almaniyada) feodalın öz vassalına verdiyi torpaq, mülk; belə torpaqlar bir nəsildən digərinə keçə bilər və yalnız məhkəmə vasitəsilə vassaldan alına bilərdi; vassalla ağa arasındakı münasibət len qanunlarına əsasən müəyyən edilirdi; 2) həmin torpaqdan yığılan pul, vəsait.

**LENDLER** [Ländler]- Avstriya-alman mənşəli qədim kəndli rəqsi.

**LENİKS** [Lenix, Lenixrolle – dartıcı çarx] – zəncirli ötürücü element, təkərin sərbəst fırlanması.

**LEYB** [Leib] - mürəkkəb sözlərin birinci tərkib hissəsini ifadə edir.

Saray, rahib yanında vəzifə: leyb - qvardiya.

**LEYB-QVARDİYA** [Leibgarde]- Leib-bədən+Garde - gözəllik) - monarx dövlətlərində, o cümlədən də Rusiyada saray əyanlarını qorumaq üçün saray qvardiyası .

**LEYTMOTİV** [Leitmotiv hərfi əsas motiv]- 1) *mus*. musiqi əsərində təkrar olunan əsas mövzu; 2) rəhbər tutulan əsas ton, ana xətt, əsas fikir, əsas məqsəd, məqam.

**LİDERTAFEL** [Liedertafel] - alman kişi xorunun həvəskar cəmiyyəti.

**LİNZA** [Linse hərfi mərci] – 1) *anat*. göz bülluru; 2) *fiz*. ədəsə, mərciyəoxşar optik şüşə.

□ linza-kollektor, linzalı, linza-obyekt, linzasız, linzavarı, linzayaoxşar

**LOZUNQ** [Losung- şüar] - 1) əsas ideyanı, siyasi tələb və çağırışı dəqiq və qısa ifadə edən müraciət; 2) üzərində belə çağırış və tələb yazılmış şüar, plakat.

**LÜFT** [Luft - hava] - tex. maşın və mexanizmin yuxarı hissəsinin bir-birilə əlaqəli zazoru.

**LÜMPEN-PROLETARİAT** [Lumpenproletariat < Lumpen] - sinfi simasını itirmiş adamlar təbəqəsi : səfillər, dilənçilər , cinayətkarlar və s.

## M

**MAAR** [Maar təkdə] - lavasız, ancaq qaz və qismən su buxarı püskürmüş, partlayış tipli sadə vulkanın yaratdığı qıfabənzər krater. Maarın diametri 200- 320 metr, dərinliyi 150- 400 metr arasında dəyişir. Maarın kraterində göl əmələ gəlir. Maar, əsasən Almaniyada, İslandiyada və Fransada geniş yayılmışdır.

**MAXE** [Avstriya fiziki H.Maxenin adından (1876-1954)] – radioaktiv nikludin qatılığının sistemdənxaric vahidi; ixtisar yazılışı M E.

**MAXİZM** [Avstriya alimi E. Maxanın adından (1838-1916)] XIX əsrin axırlarında fəlsəfədə və nəzəri fizikada subyektiv – ideālist cərəyan.

**MAKLER** [Makler] - fond və əmtəə birjalarında müqavilələr bağlanarkən vasitəçilik edən şəxs; dəllal, müştərilərə görə iş görən adam.

**MANQOLD** [Mangold (çuğundur növü)] - tərəvəz və dekorativ bitki

**MARKA I** [Marke] - 1) poçt, gerb və s. rüsumların ödənildiyini bildirmək üçün üzərində qiyməti göstərilən, şəkilli kiçik kağız parçası;
2) malın, məmulatın növü; 3) mallarda, məmulatlarda hazırlandığı yer, tarixi , keyfiyyəti göstərilən damğa.

□ poçt markası, tarif markası, zavod markası, yüksək markalı məmulat və s.

**MARKA II** [Mark] - Almaniya Federativ Respublikasında və Finlandiyada pul vahidi.

□ markalanmaq, markalamaq, markalı, markasız

**MARKAIII** [Mark] - 1) orta əsrlərdə QərbiAvropanın bir sıra ölkələrində, o cümlədən Almaniyada kənd icması; 2) orta əsrlərdə Almaniyada sərhəd vilayəti və ya müstəqil inzibati vilayət.

**MARKQRAF** [Markgraf] - 1) orta əsrlərdə Almaniyada markanı idarə edən başçı; 2) sonradan bir neçə alman knyazının titulu.

**MARKSİST**- marksizm nəzəriyyəsinin tərəfdarı; marksizmə xas olan.

**MARKSİZM** (Marksismus ) (alman filosofu Karl Marksın adından) - təbiət və cəmiyyətin inkişaf qanunları, kommunizm cəmiyyəti qurulması haqqında elmi dünyagörüşü.

□ marksçı, marksçılıq, marksistcəsinə, marksizm-leninizm, marksist-leninçi, marksaqədərki, marksist- dialektik

**MARKŞEYDER** [Markscheider] - yeraltı dağ mədənlərinin planını tutmaqla məşğul olan texnik yaxud mütəxəssis.

**MASŞTAB** [Maβstab] - 1) miqyas (xəritədə, çertyojda və s.- də həqiqi ölçüyə görə kiçik nisbətlərdə göstərilən məsafə və ölçülər); 2) *məc.* miqyas, ölçü, dairə .

**MAT** [matt – donuq, tutqun] - hamarlanmış səthin kiçik (xırda ) nahamarlığı. Məsələn, şüşənin matlığı (tutqunluğu).

**MAUZER** (alman konstruktorları W. və P. Mauzer qardaşlarının adından) – avtomatik tapança və tüfəng sistemlərindən birinin adı.

□ mauzerli.

**MEYSTERSİNQER** [Meistersinger – mahnı ustası] - orta əsrlərdə

Almaniyada xanəndə - şair.

**MİTTELSPİL** [Mittelspiel - oyunun orta vəziyyəti]- şahmatda: şahmat və dama oyununda partiyanın ortası.

**MOLBERT** [Malbrett - hərfi şəkil çəkmək üçün lövhə] - üzərinə kətan çəkilmiş çərçivəni saxlayan dayaq; rəssam dəzgahı.

**MORGEN** [Morgen] - Almaniyada və bir sıra Cənubi Afrikada torpaq ölçüsü (0,25-0,36 ha).

**MUFEL** [Muffel] - zavod peçlərində odadavamlı kütlədən qayrılmış kamera yaxud boru.

□ mufelli

**MUFTA I** [Muff, Muffe] – adətən qolları isti saxlamaq üçün xəzdən tikilmiş, hər iki tərəfi açıq biçimsiz qadın geyimi.

**MUFTA II** [Muffe] - *tex*. val, boru və s. silindrik şeyləri bir-birinə bağlamaq üçüçn metal halqa; bilərzik.

□ muftadoğrayan

**MUNDŞTÜK** [Mundstück] - 1) papirosun kötüyü; 2) müştük; 3) ağızlıq; 4) dəhnə ( yüyənin atın ağzına taxılan dəmir hissəsi).

**MÜNTS-METAL** [Münzmetall] – qurğuşunlu latun – qurğuşun əlavə edilmiş (latun formasında) mis-sinkli ərinti (böyük britaniyalı Q.Minzemin təcrübəsi – 1832-ci il).

## N

**NAQEL** [Nagel - mismar] - ağac yaxud metal mil, mıx.

**NADFİL** [Nadelfeile] - kiçikkərtikli (dişli) balaca yiyə.

**NASİZM** [Nazismus] - alman faşizmi.

**NERUNQ** [Nehrung] - Baltik dənizinin cənub sahilində uzun qumlu dil, şırım.

**NİKEL** [mis-nikel mineralının axırından: Kupfer (mis+Nickel)] - kimyəvi element; gümüşü-ağrəngli, parıltılı çətinəriyən metal.

□ nikelləmək, nikellənmiş, nikelli, nikelçi

**PATRONTAŞ** [Patronentasche - patron - *fr*.]- patronları qoymaq üçün yuvaçıqları olan kəmər.

**PAVİAN** [Pavian] - əntər (meymun cinsi).

**PFALTSQRAF** [Pfalzgraf] - orta əsrlərin əvvəllərində Frank dövlətində kral hakim; sonra Almaniyada mülkədar knyaz.

**PFENNİQ** [Pfennig] - markanın yüzdə birinə bərabər avropayaqədərki alman pulu.

**PİNCER** [Pinscher] -qısatüklü, uzunqulaqlı it cinsi.

**PİNOL** [Pinole ] -metalkəsən dəzgah düyünü.

**PLANŞAYBA** [Planscheibe] - işlənəcək materialı dəzgaha bənd etmək üçün qurğu.

**PLATS** [Platz- yer ] – nizami hərbi təlim, baxış və parad üçün meydan.

**PLATSKART** [Platzkarte > Platz (yer) - Karte (bilet)] – vaqonda nömrələnmiş yer üçün biletə əlavə olaraq verilən qəbz.

**POLİSMAYSTER** [Polizeimeister - Polizei (*yun*. polis) və Meister (*alm*. sərəncamçı) sözlərindəndir] – polis rəisi.

**POSTPAKET** [Postpaket ]- məktub bağlaması.

**PROVİANT** [Proviant) - ərzaq, azuqə (başlanğıc ordu üçün ).

**PUÇ** [Putsch] – suiqəsdçinin gerçəkləşdirdiyi dövlət çevrilişi, yaxud belə çevriliş cəhdi.

**PUDEL** [Pudel] – qıvrımtüklü it cinsi.

## R

**RAKET** [Rakete] -1) atəşfəşənlıq, habelə işıq siqnalları vermək üçün işlədilən içi barıt tərkibli maddələrlə doldurulmuş gilizdən ibarət mərmi;
2) reaktiv mühərriklə uçucu aparat; 3) çıxan qaz reaksiyasının gücü ilə hərəkətə gətirilən döyüş mərmisi.
□ raketburaxma, raketdaşıyan, raketqayırma, raketdaşıyıcı .

**RANETS** [Ranzen ] - səyyar hərbi yaxud məktəbli arxa çantası.

**RAPP** [Rappen ] - Fransada, Belçikada, İsveçrədə və bir sıra dövlətlərdə

xırda pul (frankın yüzdə birinə bərabərdir); santim.

**RAPS** [Raps] - toxumundan yağ istehsal edilən, qidada və texniki məqsədlə istifadə olunan ot bitkisi (Qərbi Avropada, Çində , Ukraynada, Belarusda, Azərbaycanda və s. yetişdirilir. Heyvan yemi kimi də istifadə olunur).

□ rapsyetişdirmə

**RASPEL** [Raspel ]- dişləri olan iri yiyə.

**RAYSKOL** [Reiβkohle) - *rəss*. şəkil çəkmək üçün ağac kötüyündən hazırlanmış nazik ucluğu olan kömür karandaş (reysfederə (bax) taxılır).

**REQAL** [Real, Regal] - yığım kassaları və hazır yığım qrankalarının saxlandığı şkaf.

**RENTABEL** [Rentabel] - *iqt*. qazanclı, gəlirgətirən, səmərəli, qoyulmuş xərci çıxaran.

**RENTGEN** [alman fiziki Pentgenin (Pönthgen) (1845-1923) adından] 1) rentgen şüaları; 2) rentgen şüaları ilə işıqlandırma; 3) rentgen aparatı Rentgen sözü ilə bağlı digər söz və söz birləşmələri: rentgen-quruluş, rentgenləşmə, rentgenometr, rentgenofizioloji, rentgenofizioloq, rentgenofotometr, rentgenofotometriya, rentgenokimoqrafiya, rentgenokinomotoqrafiya, rentgenoqrammetriya, rentgenolümiminessensiya rentgenometr, rentgenometrik, rentgenometriya, rentgenooptika, rentgenosemioptika, rentgenostruktur, rentgenotexnik, rentgenotexnika, rentgenotexniki, rentgenoterapiya, rentgen-spektral, rentgen şüaları (işığı), rentgen kabineti (otağı), rentgendən keçirmək, rentgendən keçmək, rentgenlə müalicə etmək, rentgenlə müalicə edilmək, rentgen assistenti, rentgen üsulu, rentgen həkimi, rentgenə düşmək, rentgendən keçmək.

□ rentgen şüaları – qeyri-şəffaf cisimlərdən keçə bilən qısa elektromaqnit d alğalarından ibarət gözəgörünməz şüalar.

**RENTGENAPARAT** [Rönthgenapparat] – rentgen aparatı, rentgen cihazı, aləti.

**REHTGENHƏKİM** [Rönthgenartzt] – rentgenlə məşğul olan,

rentgendən xəstələri keçirən həkim.

**RENTGENOTERAPİYA** [Rönthgenterapie + həkim Azərbaycan dilində ] - rentgen şüalarının müalicə məqsədilə tətbiqi.

**RENTGENODİAQNOSTİK** [Rönthgendiaqnostik] - rentgen diaqnostikası ilə xəstəliyi yaxşı təyin edən həkim; retgen-həkim, rentgendiaqnosttika mütəxəssisi.

**RENTGENODİAQNOSTİKA** [Rönthgendiaqnostika] - rentgen diaqnoz üsulları haqqında elm.

**RENTGENODİASKOPİYA** [Rönthgendiaskopie] - rentgen diaskopiyası.

**RENTGENOFOTOQRAFİYA** [Rönthgenphotographie] - rentgen vasitəsilə alınan fotoşəkil.

**RENTGENOQRAFİK** [renthgenographisch] -rentgenoqrafiyaya aid olan.

**RENTGENOQRAFİYA**[Rönthgenographie] - rentgen şüaları vasitəsilə qeyrin--şəffaf şeylərin (cisimlərin ) daxili quruluşunun şəklinin çəkilməsi.

**RENTGENOQRAM** [Rönthgenoqramm) – rentgen şüaları vasitəsilə fotoqraf lövhəsində alınan şəkil.

**RENTGENOLOGİYA** [Rönthgenologie, Rönthgenstrahlenkunde] - tibbin rentgen şüalarının diaqnostika və müalicə məqsədilə tətbiqindən bəhs edən şöbəsi.

**RENTGENOLOJİ** [rönthgenologisch] - rentgenologiya ilə əlaqədar olan, rentgenologiya ilə bağlı olan.

**RENTGENOLOQ** [Rönthgenologe] - rentgenologiya və rentgen şüaları ilə müalicə mütəxəssisi.

**RENTGENOSKOPİK** [rönthgenoskopisch] – rentgenoskopiyaya aid olan, rentgenoskpiya ilə əlaqədar olan.

**RENTGENOSKOPİYA** [Rönthgenoskopie] - rentgen şüaları vasitəsilə müayinəetmə, yoxlama.

**REYBER** [Reiber - reiben (sürümək)] - əl ilə işləyən litoqrafik dəzgahda ağac planka (tamasa).

**REYX** [Reich – imperiya, dövlət ] üçüncü reyx - alman imperiyası, Hitler Almaniyası.

**REYXSBANK** [ Reichsbank – imperiya bankı ] - 1945-ci ildə Almaniyada mərkəzi emisiya bankının rəsmi adı.

**REYXSKANSLER** [Reichskanzler] -1871-1945-ci illərdə Almaniyada reyx (hökumət) başçısı, dövlət kansleri.

**REYXSRAT** [Reichsrat < Reich (dövlət, imperiya), Rat ( şura)] -1) 1867-1918-ci illərdə Avstriya-Macarıstan hissəsində parlament; 2) 1919-1934-cü illərdə Almaniya ittifaqlar şurası; şuranın tərkibi vilayət dövləti rəhbərliyinin nümayəndələrindən ibarət idi.

**REYXSTAQ** [Reichstag <Reich (dövlət, imperiya)], Tag (burada yığıncaq, məşvərət)] - 1871-ci ildən sonra alman parlamenti; Hitler Almaniyasında öz mənasını itirmiş və formal olaraq qalmışdır.

**REYXSVER** [Reichswehr hərfi: imperiya mühafizəçisi) – Birinci Dünya müharibəsindən sonra 1935-ci ilə qədər alman hərbi ordusunun adı.

**REYS** [Reise – səyahət] - hər hansı bir marşrutda işləyən gəmi, təyyarə, avtomobil və s.-nin birbaş sonu, yaxud hərəkətin başlanğıcı ilə sonu arasındakı məsafə.

**REYSFEDER** [Reiβfeder] -1) tuşlu xətt (cizgi) çəkmək üçün qələm (alət); 2) karandas başlığı.

**REYSMUS** (reysmas) [Reiβmaβ]- bir şeyin kənarları ilə müvazi xətt çəkmək üçün alət.

**REYSŞİNA** [Reiβschine] – bir ucunda düzbucaq şəklində başlığı olan uzun xətkeş.

**REYTER I** (reyter) [Reiter -atlı] - XVI-XVII əsrlərdə Qərbi Avropada və XVIII əsrdə Russiyada süvari əsgər.

**REYTER I I** [Reiter - atlı] - 1) dəqiq çəki ölçüsündə işlədilən 0,01 qr. ağırlığında nazik məftil; 2) bax reyter.

**REYTUZ** [Reithosen] -1) miniklə getmək üçün geyilən dar şalvar; 2) trikotaj uşaq və qadın dizliyi.

**RITSAR** [Ritter- qədim german riter] - 1) orta əsrlərdə Qərbi və Mərkəzi Avropada hərbi- zadəgan (hərbi mülkədar ) təbəqəsinə mənsub şəxs (feodal); 2) *məc.* alicənab, mərd, comərd, fədakar (adam haqqında).

□ rıtsarlıq, rıtsarlıq etmək, rıtsar kimi yaşamaq, ritsar kimi hərəkət etmək,

rıtsarlar, rıtsar romanları

**RİF** [Riff] - sualtı qaya.

**RİXTOVKA** [richten - istiqamətləndirmək] - 1) *tex*. əyilmiş metal təbəqələri; çubuqları və məftili düzəltmə, hamarlama; 2) dəmir yol xətlərini nizamlama.

**RİQEL** [Riegel] - 1) tikinti konstruksiyasında element; karkaslı binalarda tir, dirək; 2) qapı və s. kilidlərdə sürgü, rəzə.

**ROLİK** [Rolle – rolik, katok] - 1) ağır şeylərin hərəkət etdirilməsi üçün onların ayaq hissələrinə bənd edilmiş çarx, balaca təkər; 2) elektrik məftillərini bərkitmək üçün çini, şüşə və s.- dən ibarət izolyator; 3) təkərcikli araba, ayaq diyircəyi; 4) *anat*. hansısa bir onurğanın dairəvi hərəkəti.

**ROLL** [Rolle - katok, rolik]- lifli materialları (cır-cındırı), sellülozu, ağac kütlələrini nazik liflərdə üyütmək üçün maşın; həmin materialdan kağız hazırlanır.

**ROLLQANQ** [ Rollgang] - diyircəkli transportyor.

**ROTVEYLER** >DOPDQ 5RWYH\OHU ú%K%ULQLQ D
P•KDIL]%G% D[WDUÕúGD LVWLIDG% ROXQDQ
TRQXU [DOOÕ LW FLQVL

**ROZENKREYSER** [Rosenkreuzer – Rose (qızılgül), Kreuz (xaç)]

– XVII-XVIII əsrlərdə Almaniyada, Hollandiyada və bir neçə başqa ölkələrdə dini mistik cəmiyyətlərin məxfi (gizli) üzvləri (onların emblemi qızılgül və xaçdan ibarət idi).

**RÜKZAK** [Rücksack] - hər cür şey yığmaq üçün xüsusi arxa çantası.

## S

**SANQA** [Zange] - *tex*. qısqac.

**SAPFA** [Zapfen] - *tex*. oxun yaxud valın yataqda fırlanan (hərlənən) hissəsi.

**SEYTNOT** [Zeitnot < Zeit (vaxt) və Not- çatışmazlıq, ehtiyac ] – şahmat yaxud dama oyunlarında idmançıların müəyyən edilmiş vaxtın düzgün bölüşdürülməməsi.

**SİFERBLAT** [Zifferblatt] - əqrəbli ölçü cihazları üzərində ölçülən

□ şarnirvarı

**ŞERL** [Schörl] – tünd qeyri-şəffaf turmalin növü.

**ŞİBER** [Schieber] - *tex*. zavod peçi bacasının qapağı.

**ŞİFER** [Şchifer] - 1) qara və ya kül rəngli dilli şist; 2) gildən və ya asbest sementdən plitka şəklində hazırlanan dam örtüyü.

□ şiferdüzən, şiferdüzmə, şiferləmə, şiferləmək, şiferlətmək, şiferli, şifersiz.

**ŞİXTA** [Schicht] – metaləridən peçlərdə əridiləcək metalların müəyyən nisbətlərdə qatışığı; xəlitə.

**ŞİNA** [Schiene] – 1) təkər qurşağı; təkərin üstünə çəkilən dəmir və ya rezin çənbər; 2) *tib*. bədənin bintlənmiş yerinin tərpənməməsi üçün sarğının içinə qoyulan lövhəcik; 3) *tex*. özü qızmadan, çox güclü elektrik cərəyanını nəql edən xüsusi məftil.

**ŞİRMA** [Schirm – hərfi: pərdə, çətir] - 1) üzərinə parça-parça çəkilmiş çərçivələrdən ibarət arakəsmə; 2) *məc*. pərdə, örtük .

□ şirmalı

**ŞLAFROK** [Schlafrock] - *köhn*. evdə geyilın xələt; ev xələti.

**ŞLAGER** [Schlager – schlagen (döymək) sözündəndir ] - *mus*. dəbdə olan estrada mahnısı, populyar melodiya.

**ŞLAK** [Schlacke ] - filizdən metal əridildikdən , habelə daş kömür yandıqdan sonra qalan qalıq.

□ şlaklaşmaq, şlaktipli

**ŞLAQ** [Schlag] - *dəniz*. bir şeyin (nəyinsə ) ətrafında avadanlığın, trosun (burzanın ) dövriyyəsi.

**ŞLAQBAUM** [Schlagbaum] – dəmir yolunu kəsib keçən şose yolunun qatar gələndə, yaxud adi yollarda hər hansı bir səbəbə görə onları açıb bağlamaq üçün endirilib-qaldırılan uzun ağac, tir.

**ŞLAM** [Schlamm] - *məd*. sonradan zənginləşdirmə prosesində istifadə edilmək üçün xırdalanan filiz və ya kömür.

**ŞLANQ** [Schlange] - *tex*. maye, qaz və s. kimi şeyləri sorub çəkmək və ya keçirmək üçün rezin, yaxud su keçirməyən materialdan qayrılmış boru.

adı.

**ŞPAT II** [Spat]- *bayt.* atların ayaq sümüklərinin xroniki iltihabı .

**ŞPATEL** [Spatel] - 1) rəngsaz malası; 2) boyanı qarışdırmaq üçün rəssam bıçağı; 3) *tib.* boğazı, əsnəyi müayinə edərkən dili basmaq üçün istifadə edilən qaşıq.

**ŞPİLMAN** [Spielmann ] - orta əsrlərdə Almaniyada səyyar xanəndə, musiqiçi, aktyor, akrobat.

**ŞPİNAT** [Spinat] - bostan bitkisi olan ispanaq.

**ŞPİNDEL** [Spindel ] - 1) hərlənən dəzgahların əsas valı; 2) əyirici maşında iy; 3) ox; 4) pambıqyığan maşında işləyən orqan .

□ şpindelli

**ŞPİNEL** [Spinell] - bəzi növləri qiymətli daş olan mineral qrupu.

**ŞPİON** [Spion –spähen (izləmək,güdmək) sözündəndir] - spionluqla məşğul olan adam; casus, agent.

□ şpionluq, şpionluq etmək

**ŞPİONAJ** [Spionage] – şpionluq, casusluq.

**ŞPİSRUTEN** [Spieβruten] - 1) 1701-ci - 1863-cü illər arası Rusiyada əsgərləri döymək üçün uzun çubuq; dəyənək.

**ŞPİTS I** [Spitze] - *köhn.* binanın ən yuxarı hissəsində qurulan uzun mil.

**ŞPİTS II** [Spitz] - dikqulaqlı, qalıntüklü, gümüşü-sarı, yaxud qara rəngli böyük it cinsi.

**ŞPLİNT** [Splint] - *tex.* maşında kiçik detalları bərkitmək üçün işlədilən mil.

**ŞPON** [Span- talaşa, yonqar] - 1) *mətb. köhn.* naborun sətirləri arasındakı məsafəni artırmaq üçün onların arasına qoyulan nazik metal lövhəcik; 2) birqatlı faner.

□ şponluq

**ŞPREXŞTALMEYSTER** [Sprechstallmeister] - 1917-ci il inqilabına qədər alman və rus sirkində işçi; nümayəndəliyin girişində cavabdeh şəxs.

**ŞPRENGEL** [Sprengwerk] - əsas, mühüm, baş konstruksiya.

**ŞPRİTS** [Spritze]- dərinin altına dərman yeritmək, həmçinin dərinin altındakı mayeni çəkmək üçün içiboş iynəli cihaz.

**ŞPUND** [Spund] - 1) taxtaları və s. bir-birinə bitişdirmək üçün uzununa çıxıq; 2) şərabçılıqda tıxac, qapaq.

**ŞPUR** [Spur] - 1) *məd*. partladılmaq üçün süxurlarda açılan və içərisi partlayıcı maddələrlə doldurulan daş dəlik; 2) əridici peçlərdə maye axtarmaq üçün dəlik.

**ŞRİFT** [Schrift] - 1) şəkil, rəsm; şəkildə cizgi elementləri; 2) müxtəlif ölçü və biçimdə olan mətbəə hərfləri ; hürufat.

□ şrifttökən, şriftyığan

**ŞROT** [ Schrot] - 1) ovçu qırması; 2) dənəvər yem-yağ istehsalında tullantı; mal-qara üçün yem kimi istifadə olunur.

**ŞROT-EFFEKT** [Schrot – kəsr] - *fiz*. kəsr effekti – elektrik lampalarında elektrik cərəyanının təsadüfi baş verən kiçicik titrəyişi.

**ŞTAB** [Stab] - hərbi hissələrdə, birləşmələrdə qoşunları idarə edən orqan, habelə həmin orqanın tərkibinə daxil olan şəxslər; qərargah.

□ stabçı

**ŞTABEL** [Stapel] - bir şeyin düzgün , sıra ilə yığılmış qalağı (tir, qutu, briket və s. ).

**ŞTABELYOR** [Stabelör] – yük və sairəni nizamla yığan qurğu.

**ŞTAB-OFİSER** [Staboffizier]- *hərbi*. *köhn*. bir çox orduda, o cümlədən çar rus ordusunda polkovnik, podpolkovnik və mayor rütbəsində olan zabitlərin əsgəri adı.

**ŞTABS-KAPİTAN** [Stabskapitan] - *hərbi*. *köhn*. - bir neçə orduda, o cümlədən çar rus ordusunda piyada, topçu və texniki hissələrdə poruçik ilə kapitan arasında zabit rütbəsi.

**ŞTALMEYSTER** [Stallmeister hərfi: tövləbaşı] - bir neçə monarx dövlətdə, həmçinin çar Rusiyasında saray rütbəsi.

**ŞTAMB** [Ştamm-gövdə] - *bot*., *k.t*. ağacın kökündən təpəsinə qədər gövdəsi.

**ŞTAMM** [Stamm] - mikrobiologiyada: vaksin, serum hazırlamaq üçün bir mənbədən xəstələnmiş heyvan və insan orqanizmindən saf mikroorqanizm kulturu.

**ŞTANQ** [Stange] - 1) bir çox alətlərdə, mexanizmlərdə detal kimi istifadə olunan metal ox; 2) *id*. ağır atletikada (ağırlıqqaldırmada ) işlənən, hər iki başına taxılıb-çıxarıla bilən disklər bərkidilmiş metal alət.

□ ştanqçı, stanqfırladan, stanqfırladıçı, stanqqaldıran, stanqqaldırma; qazıma ştanqı, idman stanqı.

**ŞTANQENSİRKUL** [Ştangenzirkel] - detalların xətti ölçülərini götürmək üçün alət; stanqenpərgar.

**ŞTARKA** effekt (alman fiziki Y.Starkanın (1874-1957) adından) - *fiz*. elektrik sahəsində atom və molekul enerjisinin yaradılma dərəcəsi.

**ŞTAT** [Staat-dövlət] - ABŞ, Meksika, Braziliya, Hindistan və s. dövlətlərdə inzibati ərazi bölgüsü.

**ŞTATHALTER** [Statthalter] – Almaniyada, Avstriyada, Niderlandda vilayət hakimi, canişin.

**ŞTEKER** [Stecker] - *tex*. bir yaxud ikicərəyanı elektrik zəncirinə yaxud pnevmatik xəttə birləşdirmək üçün mili olan müxtəlif quruluşlu ştepsel.

**ŞTEMPEL** [Stempel] - üzərində qabarıq şəkil və ya yazı olan möhür .

□ stempelləmək, stempellənmək, stempelli.

**ŞTEPSEL** [Stöpsel] - elektrik cihazlarını (lampanı, qızdırıcı cihazları və s.) elektrik xəttinə qoşmaq üçün haçavarı metal alət.

**ŞTEYGER** [Şteiger] - *məd.* mədən işlərinə baxan usta.

**ŞTEYN** [Ştein hərfi: daş] - əlvan metalların (mis, nikel və s.) ərintisindən qalan maddə.

**ŞTEYNQUT** [Steingut] - nazik saxsı qab.

**ŞTİFT** [Stift] - iki detalın hərəkətsiz birləşdirilməsi üçün konusşəkilli ox, mil.

□ ştiftli

**ŞTİXEL** [Stichel] - oyma üçün polad alət; nəqqaş qələmi .

**ŞTİXMAS** [Stichmaβ] - 1) iki səth arasındakı daxilin diametrini yaxud məsafəni ölçmək üçün alət; polad mildən ibarətdir; 2) ayaqqabı istehsalında qəlibi və pəncəni ölçmək üçün ayrılan lent, bafta.

**ŞTOF I** [Stoff] - mebel üzərinə çəkmək üçün, pərdə üçün yun və ipəknaxışlı parça.

**ŞTOF II** [Ştauf] - 1) qədim Rusiyada: vedrənin 1/10-na (1,23 litr ) bərabər içki (araq, çaxır) ölçüsü; 2) bu ölçüdə olan şüşə (içki butulkası).

**ŞTOK** [Ştock hərfi: ağac, dəyənək; gövdə] - 1) *geol.* mədən yatağı; 2) *tex.* buxar silindrinin pistonunu sürgü qolu ilə birləşdirən ox; 3) *dəniz.* lövbər qolu.

**ŞTOKROZA** [Stockrose ] - ot bitkisindən ağ rəngli, enliyarpaqlı iri çiçəklər açan gül; gülxətmi.

**ŞTOKVERK** [Ştockwerk] - *məd.* düzgün olmayan formada mədən filizi.

**ŞTOLNYA** [Stollen] - mədən dəhlizi, lağım yolu.

**ŞTRAF** [Strafe]- pul cəriməsi səviyyəsində inzibati cəza.

**ŞTREK** [Strecke] -yeraltı yol (mədənlər) .

**ŞTREYKBREXER** [Streikbrecher < Streik (tətil) və brechen (sındırmaq)] - bəzi ölkələrdə tətil edən fəhlələrin yerinə işləyərək tətili pozan adam, tətildə iştirak etməyən adam, fəhlə sinfinin mənafeyinə xain çıxan adam.

□ ştreykbrexerlik

**ŞTRİX** [Strich] -1) qısa (gödək) xətt, cizki ; 2) *məc.* bir şeyin ayrıca xüsusiyyəti; səciyyəvi cəhət, təfərrüat.

□ ştrixləmə, strixləmək, strixlənmək, strixli.

**ŞTUF** [Stufe] - iri mədən parçası, iri filiz parçası.

**ŞTURM** [Sturm] - güclü döyüş istehkamında (meydanında) yaxud düşmənin dayaq məntəqəsində ordunun qəti hücumu.

□ şturman, şturmanlıq

**ŞTUTSER** [Stutzer] - 1) qədim (XIX əsrdə bütün ordularda) hərbi tüfəng; 2) gödək yivli ovçu tüfəngi.

**ŞURF** [Schurf] - mədən yataqları axtarmaq üçün qazılan quyu.

□ şurflama

**ŞURUP** [Schraube (vint) ] - rezbalı möhkəm detal-burğulu mismar.

**ŞUTSBUND** [Schutzbund hərfi: müdafiə ittifaqı) – 1923 - 1934-cü

illərdə Avstriyada fəhlə ittifaqı təşkilattı; sosial-demokrat dərnəyi.

**ŞUTSMAN** [Schutzmann] - 1945-ci ilə qədər Almaniyada polis.

**ŞÜTTE** [Schütte] – cavan şam ağacının, ağ şam ağacının, küknar ağacının patogen göbələklənməyə səbəb olan xəstəliyi.

## T

**TAKSA** [Dachshund] - müxtəlif rəngli (yumşaqyunlu, uzuntüklü) ov iti cinsi.

**TALER I** [Taler] - XVI əsrdə Çexiyada, həmçinin Almaniyada Skandinaviya ölkələrində, Hollandiyada, İtaliyada və başqa ölkələrdə 3 markalıq qədim gümüş pul.

**TALER II** [Taler] 1) - *mətb*. üzərinə sink çəkilmiş stol ya çuqun lövhə; 2) çap maşınlarında üzərinə nabor, stereotip qoyulan mühərrik lövhə.

**TALVEQ** [Taluveq < Tal (dərə, vadi) + Weg (yol) ]- səth relyefinin alçaq yeri.

**TANGİR** [Tangier] - *poliqr*. qabarıq nöqtəli yaxud şəkilli jelatin plyonka.

**TANSKLAS** [Tanzklasse] – *köhn*. rəqs məktəbi; rəqs dərsi.

**TANSMAYSTER** [Tanzmeister] - *köhn*. 1) rəqs müəllimi; 2) teatrda rəqs tərtibçisi yaxud rəqs qrupu.

**TENAKL** [Tenakel]- *mətb*. tutğac, dayaq.

**TİGEL** [Tiegel] - 1) *tex*. içərisində metal əritmək üçün odadavamlı qab; puta; 2) *poliqr*. çap maşınlarında kağızı qəlibə basan metal lövhə.

**TODES** [Tod (ölüm)] - "öldürücü ilgək", cüt fiqurlu konkisürmədə element.

**TONARM** [Tonarm < Ton (səs) - Arm (əl, qol)] - qrammofon valına səs yazmaq üşün qurğu.

**TONMAYSTER** [Tonmeister] - səsyazmada mütəxəssis; səs operatoru.

**TORF** [Torf] – bataqlıqlarda yanacaq kütləsi.

□ torflu, torfluq, torfsuz.

**TRASS** [Trass ] - bərk vulkanik tuflardan olan süxur.

**TRASSA** [Trasse] - 1) yol, kanal və s. xəttin istiqaməti; 2) yol; 3) torpaq

işləri görüləcək yerin planı, cizgisi.

**TRAUR** [Trauer]- 1) matəm, yas; 2) qara yas paltarı.

**TRİOL** [Triole] -üç bərabər ritmik fiqur.

**TRİPPER** [Tripper] - *tib*. süzənək, qonoreya.

**TROQ** [Trog hərfi: təknə, tabaq] - *geol*. buzlağın fəaliyyəti nəticəsində əmələ gələn təknəyəoxşar dərə .

**TRUPPA** [Truppe] - teatr, sirk artistlərindən ibarət dəstə, qrup.

**TRÜFFER** [Trüffer] - 1) yerdombalanı (göbələk); 2) şokolad növü.

**TUŞ I** [Tusche ] - rəsm, cizgi, yazı və s. üçün qara və başqa rəngli akvarel mürəkkəb.

**TUŞ II** [Tusche ] - *mus*. qısa təbrik musiqisi.

## U

**UMLAUT** [Umlaut] – *dilç*. german dillərində daxili fleksiyanın bir növü olub, saitlərin əvəzlənməsilə yeni qrammatik formanın yaranmasına xidmət edir; XIX əsrdə dilçiliyə Yakob Qrimm tərəfindən gətirilmişdir. Misal: die Hand (əl) – die Hände (əllər), der Gast (qonaq) – die Gäste (qonaqlar) və s.

**UNTER-OFİTSER** [Unteroffizier] - bir neçə orduda, o cümlədən çar Rusiyası ordusunda kiçik zabit.

**UNTERTON** [Untertöne ] - *fiz*. əsas səs tonundan alçaq olan əlavə ton.

## V

**VAXMİSTER** [Wachmeister] - çar ordusunda kiçik süvari ( atlı) zabit.

**VAXTER** [Vexter/Wächter] - *köhn*. hər hansı bir müəssisədə qarovulçu, keşikçi.

**VAL** [Walze - val, silindr] - 1) müxtəlif maşınlarda öz oxu ətrafında fırlanan silindr; 2) silindrli dəzgahlarda val quruluşunda işçi orqan; 3) *dan*. üzərində səs yazılmış yastı çarx; plastinka.

□ valcıq, valçalan, valçaldıran

**VALM** [Walm] - üçkünc çarx, təkər.

**VALS** [Walzer] - iki nəfərin (adətən oğlan və qız) oynadığı rəqs; 2) bu rəqsin ritmdə yazılmış musiqisi.

□ vals- fantaziya

**VALTORNA** [Waldhorn hərfi: meşə buynuzu] - nəfəslə çalınan buynuzaoxşar musiqi aləti.

**VAŞHERD** [Waschherd]- dənəvər və ya lilli filizləri, xüsusən qızıllı qumu yumaq üçün aparat (cihaz).

**VEBER** [alman fiziki W. E. Weberin adından (1804-1891)] – Beynəlxalq sistemdə (Sİ) maqnit axını vahidi; bu cür ifadə olunur: Wb (Vb).

**VEKSEL** [Wechsel] - *mal.* ipoteka krediti zamanı borc alan tərəfin kreditor tərəfə təqdim etdiyi əsas və faiz məbləğinin qaytarılması ilə bağlı yazılı öhdəlik; maliyyə sənədi.

□ kommersiya vekseli, köçürmə veksel, şərtsiz veksel, təminat vekseli, valyuta vekseli, zəmanət vekseli, veksel aksepti, veksel diskontu, veksel etirazı, veksel tədavülü, veksel krediti, veksel valyutası.

**VENTİL** [Wentil - qapaq] - 1) *tex.* borularda, çihazlarda mayelərin, buxarın yolunu açıb-bağlamaq üçün alət; 2) *mus.* nəfəsli musiqi alətlərində səsin yüksəkliyini dəyişdirən hissə.

**VERKBLEY** [Werkblei] - qurğuşunun ərintisindən alınan məhsul.

**VERKİ** [Werk – tikmə, bərkitmə] - *köhn.* qalada müdafiə sədləri, bürcləri və s. istehkam.

**VERQELD**[Wergeld – insan qiyməti ] – sərbəst bir adamın öldürülməsinə görə ödənilən pul, əvəz.

**VERMAXT** [Wehrmacht] – 1935 - 1945-ci illərdə faşist Almaniyasının silahlı qüvvələri.

**VERSTAK** [Werkstatt- emalatxana; hərfi: iş yeri] – dülgər, çilingər dəzgahı.

**VEST** [Vest-Qərb] - 1) üfüqün qərb cəhətinin qəbul edilmiş beynəlxalq adı (W kimi işarə olunur); 2) Qərb; 3) Qərb küləyi.

**VİSMUT** [Wismut] – *kim.* kimyəvi element; Bi ( *lat.* Bismuthum)-nin simvolu; açıq-çəhrayı çalarlı gümüşü- boz rəngli ağır metal.

**VİSMUTİN** [Wismutin ] - Vismut parıltılı – mineral; kükürdlü vismut.

**VİZİR** [Wisier] - atıcı silahın tuşlanması üçün nişangah, arpacıq.
**VUNDERKİND** [Wunderkind – hərfi: qəribə uşaq] - qeyri-adi bacarığı olan uşaq; kinayə ilə də işlədilir.

## Y

**YAQDTAŞ** [Jagdtasche (Jagd ovçu + Tasche çanta)] - ov quşları üçün ovçu çantası.
**YEGER** [Jäger] - *tar.* 1) bəzi ordularda xüsusi nişançı alaylarında xidmət edən əsgər; 2) peşəkar ovçu.
**YODL, YODLER** [Joode, Jodler] - xalq mahnısı janrı.

**YUNKER** [Junker] - 1) keçmiş Prussiyada zadəgan, mülkədar; 2) inqilaba qədər (1917-ci il) çar Rusiyasında hərbi məktəb tələbəsi; 2) XVIII əsrin birinci yarısında - XIX əsrdə rus ordusunda dvoryanlardan ibarət kiçik zabit; unter-ofitser.
**YUNQA** [Junge – oğlan] - *dəniz.* gəmidə işləyən gənc oğlan; dənizçilik işini öyrənən gənc matros; bəzi ölkələrin donanmasında kicik matros.

## Z

**ZAL** [Saal] - 1) yığıncaqlar və məşğələlər keçirmək üçün böyük otaq. Məsələn: tamaşa zalı, idman zalı, qiraət zalı, rəqs zalı, gözləmə zalı və s.; 2) qonaqlar üçün böyük və geniş otaq.

**ZALBAND** [Salband] - yaşayış evinin yan tərəfi.

**ZAMŞA** [Sämischleder] - xüsusi aşılama üsulu ilə hazırlanan üstü məxmər kimi yumşaq maral, qoyun və s. dərisi, həmin dəridən hazırlanmış.
**ZARİN** [Sarin] - əsəb iflicliyinin zəhərləyici maddəsi.

**ZENKER** [Zenker] - silindrik deşiklərin giriş hissələrini, fasonlu sahələrini təmiz emal etmək üçün istifadə olunan metalkəsən alət.
□ zenkerləmək

**ZİQMAŞIN** [Siekenmaschine] - metal təbəqəni əymək üçün diyircəkli maşın.

**ZİLBERQROŞ** [Silbergroschen ] - köhnə Prussiyada gümüş pulu.

**ZİNQŞPİL** [Singspiel] - alman komik (musiqili) operası; danışıq dialoqu ilə həm oxunur, həm də rəqs edilir.

**ZOL** [Sol] - maye, bərk və ya qazaoxşar mühitdə yayılan hər hansı bir maddənin xırda zərrəcikləri.

**ZOMAN** b a x zarin.

**ZUMMER** [Summer- summen "vızıldamaq" sözündəndir] - *tex*. səs siqnalları vermək üçün radiotexnika və telefoniyada işlədilən elektrik cihazı və cihazda işlədilən qırıq səs.

**ZÜD** [Süd - Cənub] - *coğr*. üfüqün cənub cəhətinin qəbul edilmiş adı (S-kimi işarə olunur).

**ZÜD-OST** [Süd - Cənub və Ost - Şərq) - *coğr*. 1) üfüqün cənub-şərq cəhətinin qəbul edilmiş beynəlxalq adı ( SO kimi işarə olunur); 2) cənub-şərq ; 3) cənub-şərq küləyi.

**ZÜD-VEST** [Süd - Cənub və West – Qərb] - *coğr*. 1) üfüqün cənub-qərb cəhətinin qəbul edilmiş beynəlxalq adı; (SW kimi işarə olunur); 2) cənub-qərb; 3) cənub-qərb küləyi.

## Ad göstəricisi

Dizel
Drezin (Drais)
Fraunhofer I.
Göte I. W.
Hers H.
Lambert I.Q.
Maxa E.
Maxe H.
Marks K.
Mauzer W. və P.
Om (Ohm)
Rentgen (Rönthgen)
Simens E. W.
Veber (Weber) W.E.

## Termin göstəricisi

**A**
ablaut
abris
absuq
abştrix
abver
abzas
abzetser
akselband
allod
almenda
alpenştok
ampel
anker
anşlaq
anşlif
anşlüs
apelsin
arfa
avtobahn
**B**
bakenbard
baletmeyster
bastr
bereytor
berq-kolleqiya
biks
biq
bildaparat
blenda
blint
blits
blitsturnir
blokhaus
blokpost
bodmerya
bor
bormaşın
borştanq
brander
brandmauer
brandmayor
brandmeyster
briqadir
bruderşaft
brustver
bugel
buxalteriya
buxta
buks(a)
buksir
buna
bund
bundesbank
bundesqerixt
bundesrat
bundestaq
bundesver
burqqraf
burqomister
buterbrod
büks
bürgel
**D**
deka
demantoid
dempfer
dizel
domkrat
drathar
drel
drezin
drossel
druz
dunst
durxşlaq
dusa
**E**
efes
eksersirqaus
endşpil
erker
erzerzoq
**F**
fakeltsuq
fals
falsovka
falş
falşbort
falşkil
faustpatron
feldfebel
feldmarşal
feldşer
feldyeger
fen
feyerverk
feyerverker
fiks-punkt
filister
finna
firn
flanes
fleksaton
fligel
flint
flus I
flus II

flutbet
flyaq
fokus
forel
fordek
foreytor
forpost
forşlaq
forşmak
forzats
fraxt
frau
fraunhofer
frikadelka
froylayn
froylina
fuxtel
fuks
fuksin
fuksiya
fura
furma
futer
futlyar
fürer

**G**

gestapo
getit
gildiya

**H**

hansvurst
hantel
hart
haubitsa
hauptman
hauptvaxt
hers
hersoq
hofmarşal
hofmeyster
horn
horst
hufa
hülse

**X**

ximikalin
ximikat
xormeyster

**İ**

indemnitet
indossant
indossat

**K**

kafel
kamerdiner
kamer-freylina
kamerher
kamer-kollegiya
kamer-lakey
kamerton
kamer-yunker
kamvol
kanifas
kansler
kant
kapel
kapeldiner
kapelmeyster
kapsel
karst
keqel
keqelban
keql
kelma
kelner
kern
kerner
kervel
kirka
kitel
klafter
klapan
klavir
klaviraussuq
kleyster
klinker
klopfer
klupp
klyaksa
knext
kniksen
kobalt
koks
kolba
kolonsifr
kolontitul
kolrabi
komendatur
konferens-zal
konsertmayster
kontrapunkt
kopir
korn
kornpapir
korund
kran
kraftsellüloz
krendel
kreytser
kreytskopf
kreytsmeysel
kress
kress-salat
kron(lar)

kronqlas
kronprints
kronşteyn
krontsirkul
kronverk
kurfürst
kurtshar
kvars
kvarsit
kvartirmeyster
kvartiryer
**Q**
qarantiya
qastarbayter
qastrol
qastrolyor
qaulayter
qraf
qreyfer
qrosmeyster
**L**
lafet
lambert
landqraf
landsknext
landsver
landşaft
landştrum
landtaq
lanqhar
lanqobard(lar)
last
latskan
lederin
lekaj
len
lendler
leniks
leyb
leyb-qvardiya
leytmotiv
lidertafel
linza
lozunq
lüft
lümpen-proletariat
**M**
maar
maxe
maxizm
makler
manqold
marka I
marka II
marka III
markqraf
marksist
marksizm
markşeyder
masştab
mat
mauzer
maystersinqer
mittelspil
molbert
morgen
mufel
mufta I
mufta II
mundştük
münts-metal
**N**
nadfil
naqel
nasizm
nayzilber
nerunq
nikel
niks
nord
nord-ost
nord-vest
**O**
ober
ober-zabit
ofitser
om
ost
**P**
papiros
parikmaxer
patrontaş
pavian
pfaltsqraf
pfenniq
pincer
pinol
planşayba
plats
platskart
polismayster
postpaket
proband
proviant
puç
pudel
**R**
raket
ranets
rapp
raps
raspel
rayskol
reqal

rentabel
rentgen
rentgenaparat
rentgenhəkim
rentgenodiaqnostik
rentgenodiaqnostika
rentgenodiaskopiya
rentgenofotoqrafiya
rentgenoqrafik
rentgenoqrafiya
rentgenoqram
rentgenologiya
rentgenoloji
rentgenoloq
rentgenoskopik
rentgenoskopiya
rentgenoterapiya
reyber
reyx
reyxsbank
reyxskansler
reyxsrat
reyxstaq
reyxsver
reys
reysfeder
reysmus
reysşina
reyter
reytuz
rıtsar
rif
rixtovka
riqel
rolik
roll
rollqanq
rotveyler
rozenkreyser
rükzak

**S**

sanqa
sapfa
seytnot
siferblat
simens
soyqhaus
staffaj
standart
stellaj
straus

**Ş**

şaber
şablon
şaxta
şantsev
şarlax
şarnir
şerl
şiber
şifer
şixta
şina
şirma
şlafrok
şlager
şlak
şlaq
şlaqbaum
şlam
şlanq
şleyf
şlif
şlix
şlüz
şmutsrol
şmutstitul
şnek
şneller
şnitt-luk
şnitzel
şnorkel
şpaxtel
şpat I
şpat II
şpatel
şpilman
şpinat
şpindel
şpinel
şpion
şpionaj
şpisputen
şpits I
şpits II
şpisputen
şplint
şpon
şprexştalmeyster
şprengel
şprits
şpund
şpur
şrift
şrot
şrot-effekt
ştab
ştabel
ştabelyor
ştab-ofiser
ştabs-kapitan
ştalmayster
ştamb
ştamm

ştanq
ştanqensirkul
ştarka
ştat
ştathalter
şteker
ştempel
ştepsel
şteyger
şteyn
şteynqut
ştixel
ştixmas
ştok
ştokroza
ştokverk
ştolnya
çtof I
ştof II
ştraf
ştraykbrexer
ştrek
ştrix
ştuf
şturm
ştutser
şurf
şurup
şutsbund
şutsman
şütte
**T**
taksa
taler I
taler II
talveq
tangir
tansklas
tansmayster
tenakl
tigel
todes
tonarm
tonmayster
torf
trass
trassa
traur
triol
tripper
troq
truppa
trüffer
tuş I
tuş II
**U**
umlaut
unter- ofiser
unterton
**V**
vaxmister
vaxter
val
valm
vals
valtorna
vaşherd
veber
veksel
ventil
verkbley
verki
verqeld
vermaxt
verstak
vest
vismut
vismutin
vizir
vunderkind
**Y**
yaqdtaş
yeger
yodl,
yodler
yunker
yunqa
**Z**
zal
zalband
zamşa
zarin
zenker
ziqmaşın
zilberqroş
zinqşpil
zol
zoman
zummer
züd
züd-ost
züd-vest

# Mündəricat

Ön söz .......................................................................... 3

Lüğətin quruluşu .......................................................................... 5

Şərti ixtisarlar .......................................................................... 6

Əlifba .......................................................................... 7

A-Z ..........................................................................8-47

Ad göstəricisi .......................................................................... 48

Termin göstəricisi .......................................................................... 49